


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 237 (23.879)

21 dekabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın “İl Sole 24 Ore” qəzetinə müsahibə verib. Dövlətimizin başçısı müsahibəsində qeyd edib ki, Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişellə bir saat ərzində aparılan müzakirələr zamanı əsas diqqət münaqişədən, ötənilki müharibədən sonra yaranmış vəziyyətə yönəldilmişdir. Prezident İlham Əliyev Avropa Komissiyasının və xüsusilə də cənab Mişelin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini yüksək qiymətləndirib. Üçtərəfli görüşün səmərəli olduğu, İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar, həmin reallıqlara uyğunlaşma və qonşu olaraq yaşamağı öyrənmək kimi məsələlərdə Azərbaycanın mövqeyini aydın şəkildə təqdim etdiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul olunub ki, dəmir yolu layihəsinin praktik reallaşdırılmasına start verilsin.

Müsahibədə Avropa İttifaqının bu yaxınlarda Ermənistana 2 milyard dollar həcmində dəstək paketini elan etməsi, Ukraynaya 2 milyard dollara yaxın yardım, Azərbaycana isə sadəcə, 140 milyon avro ayıracağının təəccübləndirən fakt olduğu və Azərbaycan əhalisi üçün də çox xoşagəlməz bir sürpriz olduğu vurğulanıb, Minsk qrupunun münaqişəni həlletmə istiqamətindəki 28 il ərzindəki fəaliyyəti  uğursuzluq kimi qiymətləndirilib.



## “Şərq qapısı” qəzetinin 100 illik yubileyi qeyd olunub





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamına əsasən dekabrın 18-də “Şərq qapısı” qəzetinin 100 illik yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Şərq qapısı” qəzetinin 100 illik yubileyi münasibətilə kollektivi, muxtar respublikanın bütün mətbuat işçilərini, ziyalıları və oxucuları təbrik edərək demişdir: 1921-ci ildə ilk nömrəsi nəşr olunan “Şərq qapısı” qəzeti şərəfli yol keçmiş, Azərbaycanda öz üslubu və yolu ilə seçilən mətbuat orqanı kimi böyük nüfuz qazanmışdır. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin milli soykökə qayıdış siyasətinin tərkib hissəsi kimi qəzet də yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin dövrdə Sovetlər Birliyinin qatı senzura tələblərinə baxmayaraq, qəzetin siyasi-ideoloji istiqamətində millilik üstün istiqamət kimi götürülmüş, xalqımızın tarixinə, milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılara geniş yer verilmiş, muxtar respublikanın iqtisadi və mədəni inkişafı qəzet səhifələrində dolğun əks olunmuşdur. Dahi şəxsiyyət Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə isə “Şərq qapısı” qəzeti müstəqil dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuş, Azərbaycanın xilasını görkəmli dövlət xadiminin yenidən siyasi hakimiyyətə qayıdışında görmüşdür. Həmin illərdə ümummilli liderin milli dövlətçiliyimizin bərpası ilə bağlı Naxçıvanda qəbul etdiyi tarixi qərarlar, muxtar respublikanın işğaldan qorunması və ağır iqtisadi şəraitdən çıxarılması sahəsində gördüyü işlər qəzetin xüsusi bülletenləri vasitəsilə bütün Azərbaycana çatdırılmışdır.

Ali Məclisin Sədri demişdir: Təsadüfi deyil ki, hələ Sovetlər Birliyinin dağılmadığı bir vaxtda – 1990-cı ildə “Şərq qapısı” müstəqil mətbuat orqanı kimi fəaliyyət göstərmiş, qəzetdə proletar şüarları ilə deyil, milli birlik və müstəqillik çağırışları ilə yazılar dərc olunmuşdur. Qəzet öz səhifələrində dahi şəxsiyyətin müsahibə və çıxışlarına geniş yer ayırmaqla, bütövlükdə, xalqımızın ictimai-siyasi ideyalarının formalaşması işinə mühüm töhfə vermişdir. Ulu öndər “Şərq qapısı” qəzetinin 1990-cı il 26 iyul tarixli nömrəsində dərc olunmuş müsahibəsində demişdir: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyə almışam. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.***



“Muxtar respublikada qəzetçilik ənənələrinin inkişafında “Şərq qapısı”nın xüsusi xidmətləri olmuş, qəzetin yaradıcılıq məktəbini keçən böyük ziyalılar nəsli formalaşmışdır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün “Şərq qapısı” qəzeti ilə yanaşı, muxtar respublikada 8 şəhər və rayon qəzeti, elm və ali təhsil müəssisələrinin qəzetləri, 3 televiziya, 3 radio, informasiya agentliyi və onlarla internet informasiya resursları fəaliyyət göstərir, media orqanlarında yüzlərlə jurnalist çalışır. Müstəqillik illərində ölkəmizdə mətbuatın və medianın inkişafı sahəsində görülən işlər “Şərq qapısı” qəzetini də əhatə etmiş, maddi-texniki bazası gücləndirilmiş, müasir redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmiş, yaradıcılıq imkanları və oxucu dövriyyəsi genişlənmişdir. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və sosial-mədəni həyatında mühüm yeri olan “Şərq qapısı” qəzetinin yubileyləri daim dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli liderimiz 1996-cı il noyabrın 26-da “Şərq qapısı” qəzetinin 75 illik yubileyi münasibətilə kollektivə ünvanladığı təbrik məktubunda qeyd edirdi ki, ***“Şərq qapısı” qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra “Şərq qapısı” qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur”.***

Ali Məclisin Sədri demişdir: Bu gün tərəddüdsüz demək mümkündür ki, “Şərq qapısı” qəzeti Naxçıvanın muxtariyyət tarixini öyrənmək baxımından ən etibarlı mənbədir. Qəzetin 100 illik tarixində Naxçıvanın taleyi və müqəddəratı, çətinlikləri və uğurları əks olunub. İctimai nəzarət funksiyasını yerinə yetirən orqan kimi qəzet bu gün də muxtar respublikanın tanıdılması və təbliğində səmərəli fəaliyyət göstərir, sosial-iqtisadi və mədəni inkişafa öz töhfəsini verir. Qəzetçilik böyük zəhmət, xüsusi səy, peşəkar yanaşma, hadisələri obyektiv dəyərləndirmək, prosesləri qabaqlamaq və düzgün təhlil etmək bacarığı tələb edən sənətdir. Əgər ilk dəfə nəşrə başlayanda “Şərq qapısı” qəzetinin başlıca məqsədi cəmiyyətdə maarifçiliyə, elmi və mədəni tərəqqiyə nail olmaq idisə, bu gün qəzetin qarşısında bununla bərabər, həm də çevik informasiya siyasəti aparmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi təbliğ etmək, Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf və quruculuq salnaməsini yaratmaq və tarixləşdirmək kimi mühüm vəzifələr durur.

Ali Məclisin Sədri bu yolda mətbuat işçilərinə uğurlar arzulamış, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolunu, çətinliklərini və uğurlarını təhlil edərək ictimaiyyətə düzgün çatdıran, eyni zamanda bunu kitab halında nəşr edən jurnalistlərə təşəkkürünü bildirmiş, qəzetin kollektivini yubiley münasibətilə bir daha təbrik etmişdir.

“Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova çıxış edərək demişdir ki, 1921-ci ilin noyabrında “Cavanlar həyatı”, 1921-ci ilin dekabrından etibarən “Füqəra səsi”, 1922-ci ilin aprel ayından isə “Şərq qapısı” adı ilə nəşr olunan qəzet  müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır. Müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da

*Ardı 2-ci səhifədə*

yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə "Şərq qapısı" qəzetinin 75, 80, 85 və 90 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmiş, əməkhaqları bir neçə dəfə artırılmış, 2011-ci ildə 90 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmiş, qəzetin əməkdaşları mənzillə təmin olunmuşdur. Bu gün "Şərq qapısı"nda təcrübəli jurnalistlərlə yanaşı, gənc əməkdaşlar da çalışır. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamın icrası istiqamətində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elmi konfrans keçirilmiş, bölmə ilə birlikdə "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" kitabı hazırlanmış, ümumilikdə, yubiley münasibətilə qəzet əməkdaşlarının 6 kitabı işıq üzü görmüş, yaradıcılıq müsabiqəsi keçirilmiş, mətbuatda silsilə məqalələr dərc olunmuşdur. Ümumilikdə, yubileylə bağlı 13 tədbir keçirilmişdir. Mehriban Sultanova Naxçıvan mətbuatının himayədarı kimi "Şərq qapısı" qəzetinin kollektivi, jurnalist və ziyalılar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxış edərək demişdir ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması, nəinki jurnalistlərin, həmçinin ədəbi mühit nümayəndələrinin, ziyalıların və ictimaiyyətin böyük sevincinə səbəb olub. Müstəqillik illərində muxtar respublikada aparılan quruculuq tədbirləri kütləvi informasiya vasitələrini də əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamı mətbuatın inkişafına öz parlaq töhfəsini vermişdir. Sərəncamdan sonra muxtar respublikanın bütün mətbuat orqanları üçün əlverişli iş şəraiti yaradılmış, onların maddi-texniki bazası gücləndirilmişdir. Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin yaradılması isə qəzetlərin yaradıcılıq imkanlarının genişlənməsində və maliyyə təminatında mühüm əhəmiyyətə malikdir. Bu gün mətbuat işçiləri sabahımıza doğru gedən yolun tarixini uğurla yazırlar. Jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası fəaliyyət göstərir, hər il onlarla gənc jurnalist yetişir. Rövşən Hüseynov mətbuatın inkişafına göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

"Şərq qapısı" qəzetinin müxbiri, Naxçıvan Dövlət Universiteti Jurnalistika ixtisasının 3-cü kurs tələbəsi Məcid Ələkbərov tələbə-jurnalistlər adından minnətdarlıq edərək demişdir: "Naxçıvan Dövlət Universitetində



Ali Məclis Sədrinin təşəbbüsü və qayğısı ilə gənclər, o cümlədən jurnalistlər üçün hərtərəfli təhsil şəraiti yaradılıb. Jurnalistika ixtisasının açılması və Media Mərkəzinin yaradılması bu baxımdan xüsusi qeyd olunmalıdır. Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və "Şərq qapısı" qəzeti redaksiyasının hamiliyinə verilmişdir. Mən də muxtar respublikamızın hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş gənc jurnalistlərindən biri kimi öz yaradıcılıq yoluma "Şərq qapısı" qəzetindən başlamışam. Müqavilə əsasında "Şərq qapısı" qəzeti redaksiyasında müxbir vəzifəsində çalışıram. Bu gün Naxçıvan mediasında təmsil olunan biz gənc jurnalistlər həm də ona görə özümüzü xoşbəxt hiss edirik ki, Ali Məclis Sədrinin qayğısı ilə əhatə olunmuş, yaradılmış müasir məktəb və universitetlərdə təhsil almış, yüksək iş şəraiti olan media orqanlarında əmək fəaliyyətinə başlamışıq. Naxçıvanda bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər isə özlüyündə təkcə bu sahədə mütəxəssis hazırlığı ilə qalmır, həm də cəmiyyətimizə minlərlə vətənpərvər vətəndaş qazandırır".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 17 dekabr tarixdə "Şərq qapısı" qəzeti işçilərinin əməkhaqlarının orta hesabla 20 faiz artırılması haqqında Sərəncam imzalamışdır. Sərəncam tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

"Şərq qapısı" qəzetinin baş redaktoru Sultanova Mehriban Paşa qızına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı təqdim edilmişdir.

Mehriban Sultanova demişdir: "20 illik jurnalistlik fəaliyyətimdə cənab Prezident və Ali Məclis Sədri tərəfindən barəmdə 3 təltif və 1 təyinat Sərəncamı verilmişdir. Bütün bunlar taleyimdə mühüm rol oynayıb. Bundan sonra da mən və qəzetin kollektivi muxtar respublikanın inkişafını qəzet səhifələrində layiqincə əks etdirəcəyik".

"Şərq qapısı" qəzeti ilə uzunmüddətli əməkdaşlıq edən, qəzetin Culfa rayon müxbiri vəzifəsində çalışmış, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcova qəzetin 100 illik yubileyi ilə bağlı qiymətli hədiyyə təqdim olunmuşdur.

Fərəc Fərəcov minnətdarlıq edərək demişdir: "Şərq qapısı" qəzetinin kollektivi ilə bağlı olmuşam. Mətbuat Şurasında çalışarkən Ali Məclis Sədrinin mətbuata göstərdiyi qayğının birbaşa şahidi oldum. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin muxtar respublikada dövlət səviyyəsində qeyd olunması mətbuata, ziyalılara göstərilən qayğının bariz nümunəsidir".

Tədbirdə Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olmuşdur. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 17 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafında səmərəli fəaliyyətlərinə görə "Şərq qapısı" qəzetinin 2 əməkdaşı "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı, qəzetin və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin 4 əməkdaşı isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri fəxri adın döş nişanını və vəsiqəsini, eləcə də "Rəşadətli əməyə görə" nişanını və vəsiqəsini təqdim etmişdir.

"Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunan Səbuhi Həsənov bu adın ikiqat məsuliyyət olduğunu bildirmiş, göstərilən etimadı layiqincə doğruldacağına söz vermişdir.

"Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunan Muxtar Məmmədov demişdir: "2011-ci ildə "Şərq qapısı" qəzetinin 90 illik yubileyində mənzillə təmin olunmuşam. Azərbaycan Mətbuatının 140 illik yubileyində ölkə Prezidenti "Tərəqqi" medalı ilə təltif edib. "Şərq qapısı" qəzetinin 100 illik yubileyində isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülmüşəm. Bunu Naxçıvanda çalışan bütün mətbuat işçilərinə göstərilən qayğı kimi dəyərləndirirəm. Bundan sonrakı fəaliyyətimizdə də mətbuat işçiləri qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsində əzmlə çalışacağıq".

"Rəşadətli əməyə görə" nişanı ilə təltif olunanlardan Çingiz Ağayev, Esmira Heydərova, Şəraf Mənsumova və Əsədulla Səfərov da minnətdarlıq etmişlər.

Tədbirdə "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə hazırlanmış sənədli filmə baxış olmuşdur.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları "Şərq qapısı" qəzetinin 100 illiyinə həsr olunmuş sərgiyə baxmışlar.

Sərgidə "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamın və Tədbirlər Planının mətni, Sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə hazırlanan "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" kitabı, "Şərq qapısı" qəzeti əməkdaşları və muxtar respublikanın media nümayəndələrinin əməkdaşları olmaqla, 12 müəllifin 17 kitabı, "Şərq qapısı" qəzetinin ilk nömrələrindən bu günə kimi olan nümunələri, eləcə də qəzetin inkişaf yolunu əks etdirən fotolar nümayiş olunmuşdur.

Ali Məclisin Sədri mətbuat nümayəndələri ilə səmimi söhbət etmiş, jurnalistika peşəsinin və mətbuatın əhəmiyyətini vurğulamış, nəşr olunan kitabların dərs vəsaiti kimi istifadəsinin vacibliyini bildirmiş, bu illər ərzində səmərəli fəaliyyətlərinə görə muxtar respublika teleradio və mətbuat işçilərinə təşəkkür etmişdir.

Naxçıvan Mətbuat Şurası İdarə Heyətinin üzvü Qahirə Hüseynova minnətdarlıq edərək demişdir ki, əmək fəaliyyətimə 1980-ci ildə "Şərq qapısı" qəzetində başlamışam. Fəaliyyətimin 11 ili bu qəzetlə bağlıdır. İndi "Şərq qapısı" qəzeti əsl inkişaf dövrünü yaşayır. Jurnalistlərə göstərilən dövlət qayğısı, onların əməyinin qiymətləndirilməsi, mətbuat orqanları üçün yaradılan şərait və qəzetin 100 illik yubileyinin yüksək səviyyədə qeyd olunması bunun əyani təzahürüdür. Qürur duyuruq ki, Ali Məclis Sədrinin rəhbərliyi altında mətbuatı təmsil edirik.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova demişdir ki, qəzetin 85 illik yubileyində mənim 19 yaşım var idi və qəzetdə əmək fəaliyyətinə başlamışdım. O zamandan 15 il ötüb. Bu illər ərzində Vətən sevgisi ilə yenidən qurulan Naxçıvanın canlı şahidlərinə çevrilmişik. Biz xoşbəxt jurnalistlərik ki, ömrünü Naxçıvanın inkişafına həsr edən Ali Məclis Sədrinin rəhbərliyi altında fəaliyyət göstəririk. Çalışacağıq ki, bundan sonra da yaradılanları, qurulanları tarixin yaddaşına köçürək.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qəbulun nəticələri müzakirə edilib



*Sədərək rayonunda 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva qeyd etmişdir ki, təhsilə göstərilən dövlət qayğısı sayəsində muxtar respublikamızda yeni məktəblərin istifadəyə verilməsi, onların müasir avadanlıq, informasiya texnologiyaları və təlabat vəsaitləri ilə təchiz olunması, laboratoriya və fənn kabinələrinin yaradılması, pedaqoji heyətin əməyinin qiymətləndirilməsi ümumtəhsil məktəblərində şagirdlərin keyfiyyətli təhsil almasına və təhsildə yüksək nailiyyətlərin əldə qazanılmasına səbəb olmuşdur.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, Sədərək Rayon Təhsil Şöbəsinin tabeliyində 5 tam orta, 3 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ümumtəhsil məktəblərində 123 sinifdə 1919 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 166 müəllim məşğul olur. Təhsilə göstərilən dövlət qayğısı sayəsində rayonun bütün ümumtəhsil müəssisələrində müasir tədris şəraiti yaradılıb. Məktəblərdə 229 kompüter və 20 elektron lövhə quraşdırılıb. Məktəblərin kitabxanaları 21 mindən çox latın qrafikalı bədii ədəbiyyat və 18 minə yaxın dərsliklə təmin olunmuş, bütün təhsil müəssisələrində idman zalları, açıq idman qurğuları, 2 məktəbdə STEAM kabinəsi yaradılmışdır. Hazırda 1 məktəbdə STEAM kabinəsi yaradılır. Müəllimlərin işə qəbulu üzrə keçirilən müsabiqələrdə son 3 ildə 17 gənc kadr müəllim kimi fəaliyyətə başlamış, 2 gənc kadr isə müxtəlif vəzifələrə təyin olunmuşdur.

Qeyd edilib ki, rayon Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2020-2021-ci tədris ili üzrə 99 məzunundan 96-sı və ya məzunların 97 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmişdir. Onlardan isə 71-i və ya 74 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. 6 məzun imtahanlarda 500-700 bal arası nəticə göstərmişdir. Təhsildə qazandıqları nailiyyətlərə görə məzunlardan 1-i fərqlənmə attestatına layiq görülmüşdür.

Təhsil naziri nəticəsi yaxşı olan məktəblərin kollektivlərinə təşəkkür etmişdir.

Sonda Təhsil Nazirliyi tərəfindən ötən tədris ilində keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən 3 məktəbə diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirismayıl Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti dekabrın 20-də Şərur rayonunda 5 günlük humanitar aksiyaya start verib.*

## Şərur rayonunda humanitar aksiyaya start verilib



Aksiyada klinik xəstəxananın cərrahlarından Samir Aslanbəyli, Məsmə Həsənova, Sahib Hüseynov, mamaginekoloq Zəhra Abbasova, kardioloq Gülnar Cəfərova, otolarinqoloq Anar Əsgərov, uroloq Ceyhun Cəlilov, endokrinoloq Gülxanım Qurbanova və başqaları olmaqla, 21 müxtəlif-ixtisaslı həkim iştirak edir. Onların səyi ilə aksiyanın ilk günü 542 nəfər ambulator müayinədən keçirilib. Pasiyentlər cərrahi, hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə əhatə olunublar.

Həkim heyəti tərəfindən əməliyyat olunması tövsiyə edilən sakinlərin pulsuz zəruri cərrahiyyə əməliyyatı aparılıb. Cərrahi müdaxiləyə ehtiyacı olan 8 nəfər üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar həyata keçirilib. Əməliyyatlar uğurla davam edir, xəstələr birgünlük müşahidə altında saxlanılır.

Müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb. Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə əhaliyə xidmət göstərir.

Aksiyada iştirak edən Şərur rayonunun Yengicə kənd sakini, iki uşaq anası Ruqiyyə Qasımova bildirib ki, rayon Mərkəzi Xəstəxanasında belə bir aksiya keçirilməsi onun sağlamlığının bərpasına imkan verib. Aksiyanın ilk günü onun üzərində cərrahi əməliyyat aparılıb. Palataya yerləşdirilən digər xəstə – Püsyan kənd sakini Ramiz Əkbərov da özünü yaxşı hiss edir. Müayinə və müalicə ilə əhatə edilən digər xəstələr dövlətimiz tərəfindən reallaşdırılan tədbirlərdən sonsuz razılıqlarını ifadə edərək minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ölkəmizdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli sosial siyasət vətəndaşların rifah halının yüksəlməsi, geniş sosial müdafiə tədbirlərinin həyata keçirilməsi, müasir tələblərə cavab verən sosial infrastrukturun yaradılması, o cümlədən xüsusi qayğıya ehtiyacı olan vətəndaşların dövlət dəstəyi və diqqəti ilə əhatə olunması kimi məqsədləri ehtiva edir. Dövlətimizin başçısının təşəbbüsü ilə həyata keçirilən geniş Dövlət proqramları nəticəsində bu gün ölkə vətəndaşları səhiyyə sahəsində də ən yüksək xidmətlə təmin olunurlar. Bu istiqamətdə görülən işlərə muxtar respublikamızda da verilən töhfələr ölkəmizdə reallaşdırılan sosial siyasətin məqsədlərinə uyğundur və bu kimi nəcib təşəbbüslərə dəstək xarakteri daşıyır.

Humanitar tibbi aksiya dekabrın 25-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Mənəvi dəyərlərimizin güzgüsü – *ziyarətgahlar*

***Xalqımızın dini-mənəvi mədəniyyətinin bir hissəsini təşkil edən müqəddəs yerlər – pirlər, ocaqlar, məscidlər, xanəgahlar, türbələr, eləcə də ziyarətgahlar tariximizi yaşadan və keçmişlə bu gün arasında körpü yaradan maddi-mənəvi sərvətlərimizdir. Ərəbcədən tərcümədə ziyarət yeri, müqəddəs məkan mənalarını ifadə edən ziyarətgahlar məscidlər qədər xalqımızın dini inancının qorunub saxlanmasında və yaşadılmasında mühüm əhəmiyyət daşıyır və əhali arasında ictimai əlaqələrin sıxlaşdırılmasında mühüm rol oynayır. Qədim vaxtlardan dağ, ağac, su mənbələri, mağara, səma cisimləri ilə yanaşı, dini və dünyəvi şəxslərin məzarları da tarixən ziyarətgah yer olub. Qəlbində Tanrıya diləyi, arzusu olanlar bu müqəddəs yerlərə gələrək heç kəsə deyə bilmədiklərini dilə gətiriblər. Bu gün də insanlarımız ziyarətgahlara müqəddəs yerlər kimi iman gətirir, ondan kömək, ruzi-bərəkət, sağlamlıq diləyirlər. Qədim tarixə, zəngin mədəniyyətə malik muxtar respublikamızda da ziyarətgahlar dini-ziyarət turizminin əsas ünvanlarından hesab olunur. Müqəddəs Əshabi-Kəhf ziyarətgahı, Nuh Peyğəmbərin türbəsi, imamzadələr, qədim tarixi məscidlər, müxtəlif pirlər ilboyu diyarımıza gələn turistlərin ziyarət yerləri kimi dünyada tanınır. Bu gün muxtar respublikamızda dini dəyərlərimizin qorunub yaşadılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, dövlətimizin qayğısı ilə tarixi abidələr, dini ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir.***



*Nüsnüs piri*

Muxtar respublikamızın hər bir bölgəsində, o cümlədən Ordubaddakı qədim və ya bərpa edilən ziyarətgahlar həm də xalqımızın mənəvi dəyərlərinin qorunub saxlanıldığı müqəddəs yerlərdir. Bu qədim yurd yerinin, demək olar ki, hər bir kəndində müqəddəs ziyarət yerlərinə rast gəlmək mümkündür. Feyruz Bağırovun “Nuh yurduna ziyarət” kitabına istinad edərək deyə bilərəm ki, rayon mərkəzinin özündə, eləcə də Tivi, Düylün, Üstüpü, Nüsnüs, Aza, və digər kəndlərində olan qədimlərdən qalma və ya yeni həyat verilən ziyarətgahlar – pirlər yerli əhalinin, eləcə də bu yerlərə ayaq basan hər kəsin diqqətini cəlb edir. Bu gün də insanların ziyarət etdikləri yerlərdən bir neçəsi haqqında məlumat verəcəyik.

Ordubadın səfalı təbiəti ilə seçilən Tivi kəndindəki ***Anabat piri*** eyni adlı məscidin içərisində yerləşir. Pirin kifayət qədər tanınmış olmasının əsas səbəbi orada illərdən bəri qorunub saxlanılan möcüzəvi “ələm”dədir. Pirdəki möcüzəvi ələmin adını “Tir-Əbülfət” (hərbi yürüşlərdə şərəflə gəzdirilən zəfər bayrağı) adlandırıblar. Ələmin möcüzəvi sirri, “tovuz quyruq” şəklində metal parçasının çərçivəsindəki nazik məftil şəbəkə üzərindəki yazılardadır. Ərəb əlifbası ilə çərçivədə Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn sözləri yazılmış əşyanın forması su damlası formasındadır. Buranı ziyarət edənlər sandığı açaraq ələmi ehtiramla ələ götürərək “Qurani-Kərim”in “Bəqərə” surəsindəki “Ayətəl-Kürsü” duasını oxuyub, Məhəmməd (s.ə.s) Peyğəmbərə salam (salavat) deyirlər.

Orta əsrlər dövrünə aid ***“Sarı yal” piri*** isə kənddən cənub-şərqdə, “Sarı yal” adlı yerdə, yamacda yerləşir. Onun yerləşdiyi ərazi bir tərəfdən dərin dərə ilə, digər tərəfdən isə qədim nekropolla sərhədlənir. Əhali arasında belə bir inanc vardır ki, bu pirə nəzir edənlərin duası qəbul olunur.

***Nüsnüs piri*** rayonun Nüsnüs kəndindəki məscid binasındadır. Məscid XIV əsrdə inşa edilərək dövrümüzədək gəlib çatıb. Möcüzəvi pir məscid binasının birinci mərtəbəsində yerləşir. Nüsnüs pirinə “Qırx kimsənə” də deyirlər. Deyilənə görə, orada ilk məskunlaşan adamların qara rəngli sütunvari daşa “nis-nis” (qeyb olmaq) demələrindən kəndin adı yaranıb. Yerli əhalinin dediyinə görə, pirin möcüzəvi xüsusiyyəti ondadır ki, bura gələn ruhi xəstələr, üç gün müddətində qara sütun daşın yanında yatmaqla, Allahın qüdrəti ilə pirdəki qeybə çəkilmiş 40 nəfər möminin duası ilə sağalaraq şəfa tapırlar. Məscidin birtağlı taxta qapısı üzərindəki yazıda qeyd olunub: “Allahın adı ilə olan bu məscidi Bahadur şah tikdirib və burada iki rükət ziyarət namazı qılınmalıdır”. Nüsnüs pirində ziyarətçilər üçün bütün imkanlar yaradılıb, lazımi avadanlıqlar qoyulub və bura ilin bütün fəsillərində gəlmək mümkündür.

Tarixi mənbələrə əsasən yaranma tarixi, təxminən, XVI-XVII əsrlərə aid edilən ***Üstüpü piri*** Ordubad rayonunun Üstüpü kəndindən şərqdə, hündür təpənin üzərində ziyarətgahdır. Coğrafi cəhətdən yaşayış məskəninin səviyyəsindən yüksəklikdə yerləşən piri “İsfəndiyar” da adlandırırlar. Qərbdən Şərqə uzanan binadan ibarət pirdə ziyarət obyekti olan, qara mərmərlə üzlük çəkilən qəbir vardır. Yerli əhalinin söylədiyinə görə, bu pirdə İsfəndiyar adlı müqəddəs şəxsiyyət dəfn olunub. Babək rayonunun Cəhri qəsəbəsində də xalq arasında və mənbələrdə İsfəndiyar Zaviyəsi (piri) kimi tanınan eyniadlı ziyarətgah vardır.

Ordubad rayonundan, təxminən, 20 kilometr qərb tərəfdə, Düylün kəndinin cənubunda yerləşən ***Düylün piri*** qədim ziyarətgahlardan biridir. Ətrafı geniş qəbiristanlıq olan pir binası çiy kərpicdən inşa edilib. Binanın içərisində ziyarət obyekti olan qəbir vardır. El arasında olan fikirlərə görə, bu pirdə şiələrin VII imamı Museyi Kazımın övladlarından Seyyid Şəffan (Şəfi) dəfn olunub və qəbri ziyarətgaha çevrilib. Ərazidə sənduqə, daş qoç və qoyun, başdaşı formalı qəbirüstü xatirə abidələrinin bir hissəsi üzərindəki məzar kitabələrinin tarixlərindən aydın olur ki, pirə XIV əsrin ortalarından ziyarətə gəliblər. Hazırda bu müqəddəs yerə nəinki ətraf kəndlərin, hətta muxtar respublikanın digər rayonlarından da ziyarətə gəlirlər.

***Xanağa piri*** Ordubad rayonunun Xanağa kəndində ziyarətgahdır. Kəndin şərq tərəfində yerləşən, ikiotaqlı binadan ibarət pirin içərisində qara örtük çəkilmiş bir qəbir vardır. Üzərində kitabə olmadığından qəbrin kimə məxsusluğu müəyyənləşdirilməyib. Lakin rus alimi V.M.Sısoyev 1926-cı ildə pirin böyük otağında bir-birindən 20 santimetr aralı iki qəbir olduğu barədə məlumat verərək bildirib ki, pirin cənub divarındakı pəncərənin sağ və sol tərəfində Ordubad ərazisi üçün səciyyəvi olan yaşılımtıl daşdan baş daşları qoyulub. Sağ tərəfdəki başdaşı üzərindəki ərəbcə kitabədə Quran ayəsi, mərhumun adı və vəfat tarixi həkk olunub: “Bu qəbir Seyyid Həmidin oğlu mərhum Seyyid Tahirindir. Yeddi yüz yeddi tarixdə” (1308). Sol tərəfdəki başdaşının üzərindəki 7 sətirlik kitabədə onun Şeyx Nurəddinin oğlu Şeyx İslamın qəbri olduğu göstərilir. Baş daşlarından məlum olur ki, üstü hörülüb suvanaraq tək şəklə salınmış qəbir, əslində, vaxtilə iki qəbirdən ibarət olub. Bu pirin yerində vaxtilə hansısa sufi təriqətinə məxsus zanəgah olduğunu da deyənlər vardır.



*Malik İbrahim piri*



*Üstüpü piri*

Ordubad şəhərində yerləşən ***Malik İbrahim piri*** də ordubadlıların ən çox ziyarət etdiyi yerlərdəndir. Ziyarətgah Malik İbrahim qəbiristanlığının mərkəzində yerləşən böyük bir binadan ibarətdir. Binanın cənub tərəfdəki otağında bir qəbir yerləşir. El arasındakı fikrə görə, bu qəbirdə şiələrin üçüncü imamı, sərkərdə İbrahim Əjdərin oğlu Malik dəfn edilib. Malik İbrahim piri, xüsusilə Məhərrəm və Səfər aylarında daha çox ziyarət olunur. Pirdən bir qədər aralı yerləşən, el arasında “Şeyxin qəbri” adlanan sufi şeyxi Şeyx Əbu Səidin qəbrini də əhali böyük hörmət və ehtiramla ziyarət edir.

*Xalqımız milli-mənəvi dəyərlərimizi hər zaman sədaqətlə qoruyub, yaşadıb və inkişaf etdirib. Qədim diyarımızın 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı statusunu layiqincə doğrultması səbəblərindən biri də burada dini-mədəni dəyərlərimizə böyük ehtiramla yanaşmadır. Muxtar respublikada ziyarətgahlar və qədim məscidlərin bərpa olunması istiqamətində həyata keçirilən çoxsaylı tədbirlər fikrimizi bir daha təsdiq edir. Ordubad şəhərindəki zəngin memarlıq nümunələrinə malik qədim Cümə məscidində bərpa işlərinin aparılması, Babək rayonunun Cəhri qəsəbəsindəki tarixi məscidin müasir layihə əsasında yenidən inşasının, demək olar ki, tamamlanması muxtar respublikamızda dini dəyərlərimizin bundan sonra da qorunub yaşadılacağına etibarlı zəmanətdir.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## *“Bank savadlılığı” layihəsi* çərçivəsində növbəti tədbir

Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birgə “Bank savadlılığı” layihəsi çərçivəsində muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq obyektlərinin nağd pulla birbaşa iş aparan əməkdaşları üçün “Milli pul nişanlarının mühafizə elementləri, zədələnmiş pul nişanlarının dəyişdirilməsi və ekspertizası” adlı tədbir keçirilmişdir.

Tədbirin keçirilməsində məqsəd muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq obyektlərinin nağd pulla birbaşa iş aparan işçilərinə milli pul nişanları haqqında məlumat vermək, saxta pul nişanlarına qarşı mübarizə tədbirləri və dövriyyədə olan zədələnmiş pul nişanlarının dəyişdirilməsi ilə bağlı məlumat verməkdən ibarət olub.

Tədbir zamanı iştirakçılara Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin “Bank savadlılığı komanda-



sı”nın üzvləri Samil Quliyev və Pərviz Babayev tərəfindən Mərkəzi Bankın məqsəd və funksiyaları, onun iqtisadiyyatda rolu, o cümlədən pul siyasəti, yenilənmiş pul nişanları, zədələnmiş pul nişanlarının dəyişdirilməsi və digər mövzular elektron slaydlarla tədris olunmuşdur.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin mətbuat xidməti***

## Dövlət sosial sığorta haqları hesabına müavinətlər ödənilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu muxtar respublikada məcburi dövlət sosial sığorta sistemində sığortaçı olaraq sığortaolunanların sosial rifah halının yaxşılaşdırılması və onların həyat səviyyəsinin yüksəldilməsi üçün üzərinə düşən öhdəlikləri yerinə yetirir. Belə ki, fond tərəfindən cari ilin 11 ayı ərzində sığortaedənlər tərəfindən təqdim olunan müvafiq təsdiqedici sənədlərə əsasən muxtar respublika üzrə 15 min 903 sığortaolunana məcburi dövlət sosial sığortası üzrə ödəmələr həyata keçirilib. Bunlardan əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə 527, hamiləliyə və doğuma görə 795, uşağın anadan olmasına görə 2964, uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə 9448 sığortaolunana müavinət ödənilib. Həmçinin vəfat etmiş sığortaolunanın və ya pensiyaçının dəfn etməyi öhdəsinə götürən 2169 şəxsə isə dəfn üçün müavinət verilib. Fondun şöbələri tərəfindən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə 237 min 659 manat, hamiləliyə və doğuma görə 1 milyon 70 min 909 manat, uşağın anadan olmasına görə 585 min 74 manat, uşağa qulluğa görə 412 min 561 manat, dəfn üçün müavinətə isə 1 milyon 216 min 627 manat vəsait müvafiq şəxslərə ödənilib.

Məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanlara ödənilən müavinətlər üzrə vəsait sığortaedənlər tərəfindən təqdim olunmuş bank rekvizitlərinə uyğun olaraq onların plastik bankomat kartlarına və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yerli poçt bölmələri vasitəsilə ödənilib.

Qeyd edək ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma görə müavinətləri almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 təqvim günü üçün müavinət sığortaedənin vəsaiti, qalan günlər üçün isə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilir. Bu müavinətlərin aylıq məbləği “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunan əmək pensiyasının minimum məbləğinin 25 mislindən artıq ola bilməz.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Xanəli Kərimlinin 70 illik yubileyi qeyd edilib



Naxçıvan Dövlət Universitetində Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimlinin 70 illik yubileyinə həsr olunmuş “Şair könlü bir ümmandır” adlı ədəbi-bədii kompozisiya keçirilib.

Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti Arif Ağalarov tədbirdə şairin ədəbi yaradıcılığı haqqında məlumat verib. Vurğulanıb ki, bədii yaradıcılığa ötən əsrin 80-ci illərində başlayan Xanəli Kərimlinin ilk şeiri “Toğluqayanın Məmməd Araza məktubu” şeiridir. Bildirilib ki, 1991-1996-cı illərdə Naxçıvan Dövlət Universitetinin “Fikir” qəzetinin redaktoru, eyni zamanda 1996-1998-ci illərdə universitetin Ədəbiyyat kafedrasında müəllimliklə bərabər 1998-2014-cü illərdə Qənbi tələbələrlə iş üzrə fakültənin dekanı vəzifəsində fəaliyyət göstərib. Xanəli Kərimli 1987-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsi alıb.

Teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev Xanəli Kərimlinin yubileyinə dair Azərbaycan Yazıçılar Birliyinin “Ədəbiyyat” qəzetində çap olunan məktubunu oxuyub və şairin poeziyasından bir nümunə bədii qiraət edib.

Filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudova, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar Kamal Əhmədov yubilyarı təbrik edərək ona xoş arzularını çatdırıblar. Sonra bəstəkarın Xanəli Kərimlinin “Mən səni sevmişəm” adlı şeirə bəstələdiyi eyniadlı romansı səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Aqib Seyidovun bədii rəhbəri olduğu Xalq çalğı alətləri kafedrasının “Şəms” instrumental ansamblının müşayiəti ilə kompozisiyanın ruhuna uyğun ifalar səsləndirilib.

Naxçıvan Aşıqlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar artisti aşıq Tural Bağırovun saz ifası tədbirə xoş ovqat bəxş edib.

Tələbə Teatr Studiyasının üzvləri, Tarix-filologiya fakültəsinin tələbələri şairin şeir və poemalarından seçmələri bədii qiraət ediblər.

Universitetin rektoru, dosent Elbrus İsayev yubilyarı təbrik edərək ona Fəxri fərman və gül dəstəsini təqdim edib. Rektor tədbirdə filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudovanı da 50 illik yubileyi münasibətilə təbrik edib.

Filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimli göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

“Şərq qapısı” – 100

ŞƏRQ qapısı

## Zamanın sükançısı

**“Əkinçi”, “Şərqi-Rus” böyük qardaşın,**
**Mirzə Cəlil yol yoldaşın, sirdaşın.**
**Tarixinə bir güzgüdür yaddaşın –**
**Bu tarixin salnaməsin yazan sən!**
**Yüz yaşının nəğməsini yazan sən!**

**Ordususan, əsgərisən Vətənin,**
**Basılmayan səngərisən Vətənin,**
**Qələm tutan əllərisən Vətənin.**
**Saf amalın, üzağlığın həmişə,**
**Bu torpağı qaldırıbdı Günəşə!**

**Hər kəlməndə elin gücü “Cəngi” var,**
**Dilimizin saflığı, ahəngi var,**
**Hər günün öz ətri, öz çələngi var –**
**Xalqın səsi, ruhu, qanı canı, sən!**
**Naxçıvanın şöhrət tacı, şanı, sən!**

**Nüfuzlu qəzet tək çəkilir adın,**
**Neçə-neçə qələm əhli övladın,**
**El içində qazanmısan savabın –**
**Bu elin məktəbi, mayağı da sən,**
**Sinəndə boy atır, yüksəlir Vətən!**

**Tutduğun yol ulu Heydər yoludur,**
**Zirvələr fəth edən bir ər yoludur,**
**Bu yol qalibiyyət, zəfər yoludur –**
**Sənsən sükançısı dövrü, zamanın,**
**Səninlə yol gedir Nəqşicahanım!**

Rövşən HÜSEYNOV

## Naxçıvan Muxtar Respublikası üzrə 20 dekabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 3884 | 3274 | 610 |
| 2. | Babək rayonu | 10778 | 7216 | 3562 |
| 3. | Ordubad rayonu | 1522 | 528 | 994 |
| 4. | Culfa rayonu | 5586 | 4452 | 1134 |
| 5. | Kəngərli rayonu | 5971 | 3287 | 2684 |
| 6. | Şahbuz rayonu | 1441 | 1152 | 289 |
| 7. | Sədərək rayonu | 2315 | 796 | 1519 |
| 8. | Naxçıvan şəhəri | 950 | 664 | 286 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | 32447 | 21369 | 11078 |

*Xalq təqvimi*

## İlin ən uzun gecəsi – Çillə

*Əsrlərin sınağından çıxmış milli tarixlər nənə-babalarımız üçün dəyişilməzdir. Onlarla elə bu gün də söhbət zamanı hər hansı bir gün haqqında danışanda dəqiq tarix deməzlər. Ağbirçəklərimiz, ağsaqqallarımız üçün aylar özünə mənəvi hüquq qazanmış məfhumlar içərisində “əriyir” – Məhərrəm, ramazan, qurban, Səfər, bayram ayları... Onların təbirincə fəsilləri əvəz edən vaxtlar da olub: Böyük çillə, Kiçik çillə, Boz çillə...*



Çillələrlə bağlı bir çox əfsanələr dildən-dilə keçib bu günümüzə kimi gəlib çatıb. Deyilənlərə görə, “Qış” adlı bir kişinin “Böyük çillə”, “Kiçik çillə”, “Boz ay” adlı üç oğlu var imiş. Qış əvvəlcə ilkini – Böyük çilləni qırxgünlük səfərə göndərir ki, gedib el-obaları gəzsin, dünyaya tamaşa eləsin. Görsün nə var, nə yox, adamlar necə yaşayır, necə işləyirlər?

Böyük çillə altdan-üstdən bərk geyinir. Ağ qar yapıncısını da çiyinlərinə salıb yola çıxır. Az gedir, çox dayanır, çox gedir, az dayanır, axır ki, aralıq ayının – yəni dekabrın iyirmisində gəlib el-obaya yetişir. Adamlar səhər yuxudan oyanıb çölə baxanda görürlər ki, paho, hər yan ağappaq qara bürünüb. O saat barmaqlarını dişləyirlər ki, Böyük çillə gəlib çıxıb. Deməli, nə az, nə çox, düz qırx gün dağda-düzdə, kənddə-kəsəkdə özünün qar atını belədən-elə, elədən-belə çapacaq. Nə etməli, Böyük çillənin qarından-soyuğundan qorxub evin bir küncünə çəkilmək olmaz ki! Bəs onda iş-gücün qulpundan kim yapışsın?

Çuvalların, küpələrin, xaralların ağzı açılır, təndirlər yandırılır, kürsülər qurulur, buğda götürülüb, səməni göyərdilir. Göyərdilmiş səməni taxta çanaqda, tabaqda döyülüb suyu sıxılır. Yeddi qonşu evdən un alınıb bu səməni suyunda sıyıq, xəmir iri tavada ocaq üstə qoyulur. Başlayırlar səməni halvası bişirməyə. Halva bişənə yaxın onun içinə badam, qoz ləpəsi də salınır. Yeddi qabda yeddi evə pay göndərilir.

Bayram və mərasimlər hər zaman etnoqraflarımızın diqqətini cəlb etmiş və bu mərasimlər haqqında bir çox araşdırmalar aparılmışdır. Elə biz də mövzu ilə bağlı AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Asəf Orucovla həmsöhbət olduq. O bildirdi ki, xalqın tarixi keçmişinin, xüsusən mənəvi mədəniyyətinin öyrənilməsində təqvimlə bağlı adət və mərasimlər mühüm əhəmiyyət kəsb edir. Bunlar arasında qış adət və mərasimləri xüsusi yer tutur. Çillə gecəsi qışın başlandığı gün kimi qeyd olunur, dekabrın 20-nə, yaxud 21-nə təsadüf edir.

Etnoqraf alim qədim mərasimlərdən biri olan və bu gün də xalqımız tərəfindən yaşadılan qışın qarşılanması – çillə gecəsi haqqında danışaraq onu da qeyd etdi ki, ilin son fəsli olan qış təsərrüfat işlərində mühüm rol oynamasa da, xalq etiqadlarında, adət və ənənələrində, inamlarda ona aid zəngin materiallara rast gəlirik. Qışın əsas atributlarından biri qardır. Qar bərəkət, gələn ilin bolluğu və məhsulu deməkdir. Payız əkinlərinin qalın qar ilə örtülməsi onu şaxtadan qoruması, yazda bol su ilə təmin etməsi deməkdir. Bunu aşağıdakı folklor nümunəsində də görmək olar:

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çillə.*
*Taxıllara yorğan ol,*
*Bağçalara bar, çillə.*

Qar örtüyünün insanlar üçün müsbət xüsusiyyətli olması “Qar olmasa, bar olmaz”, “Qar ili, var ili” kimi atalar sözlərində də öz əksini tapıb.

Qış fəslində gecə və gündüz havanın necə keçməsi kimi əlamətlər ilin ümumi vəziyyəti haqqında fikir söyləməyə imkan verir. Xalqımızın müşahidələrinə görə, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı, buludlu keçərsə, bu, ilin yaxşı keçməyəcəyinə işarədir. Əksinə, qışda gündüzlərin ayaz, gecələrin buludlu, dumanlı keçməsi isə ilin xoş keçib, insanlar üçün faydalı olacağı kimi yozulardı. Ümumiyyətlə, xalqımız qışa çətinlik dövrü kimi baxsa da, o həm də əyləncə, nağıl, aşıq məclisləri, qadınların toxuculuq işləri ilə də yadda qalardı. İnsanlar bütün yorğunluğunu qış mövsümündə atardılar. Qış görüləcək işlərin az olması səbəbi ilə bir dincəlmə mövsümüdür.

Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq “Çillə” adı ilə üç yerə bölüb. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), Kiçik çillə 20 gün (31 yanvar-20 fevral), Ala çillə və ya ala çolpav (Boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur.

Çillə bayramı, Çillə gecəsi payız fəslinin sonu, qış girən günü, yəni dekabr ayının 20-si gecəsi qeyd edilir. Çillə gecəsi ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir. Mənbələrdə qeyd edilir ki, çillə “çehil” sözündəndir, mənası “qırx” deməkdir. Xalq arasında ağırlıq anlamında başa düşülür. Çillə dərd, kəramət, xəstəlik mənasında qəbul edildiyindən onun girməsi dərdin, çətinliyin gəldiyinə işarədir. Çillə bayramının erkən çağlar “sırağan”, yaxud “çırağan” kimi də adlandırıldığı göstərilir. Qeyd edək ki, doğumla bağlı inam və adətlərdə “çilləli”, “çillə kəsmək”, “çillə basdı” və sair kimi ifadələrə də rast gəlirik. Bu da müəyyən xəstəlik, çətinliklərlə bağlıdır. B.Abdulla yazır ki, adamlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, elə bu da “çillə kəsmək” adlanırdı.

Çillə bayramını xalqımız xüsusi qeyd edər, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görərdilər. Bayram günü, demək olar ki, bütün evlərdə çillə üçün alınıb saxlanılmış qarpız kəsilərdi. Hər kəs çalışardı ki, həmin gün evində “çillə qarpızı” olsun. Qarpız çillə gecəsinin ən gözəl payı hesab edilir.

Toplanmış çöl materiallarına əsaslanan müsahibim deyir ki, Naxçıvanın Arazboyu kəndlərinin əksəriyyətində çox da böyük olmayan, qalın qabıqlı xüsusi qarpız növü əkilərdi ki, belə qarpızları uzun müddət, hətta Novruza qədər saxlamaq olardı. Çilləyə saxlanılması nəzərdə tutulan qarpız tam yetişməmiş və saplaqlı olsa, daha yaxşı qalar. “Çillə qarpızı” xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar. “Çillə qarpızı”na bolluq, bərəkət rəmzi kimi baxılır.

“Çillə gecəsi”ndə qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa da işarədir. Digər məlumata görə, çillədə qarpız kəsəndə deyərlər ki, “ay qarpız, səni mən necə kəsirəmsə, çilləni də belə tez kəsim”. Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Bəzi bölgələrimizdən (Şərur, Ordubad) yaşlı insanların verdiyi məlumata görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yəni günəşli olsun. Çillə qarpızı kəsilən vaxt xalq arasında “niyyətetmə” adəti mövcuddur. Niyyət zamanı qarpızın baş tərəfini kəsib, dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə ağ və ya göy olarsa, niyyət qəbul edilmiş olur. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutulub atılması dörd fəsillə, qarpız qabıqlarının rənglərinə uyğun (ağ və göy) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Bundan başqa, qarpız kəsilib yeddi evə pay göndərilir. Çillə bayramı günü nişanlı qızların, təzə gəlinlərin bayram görüşünə (Çillə bayramına) gedərdilər. Bayramlıqlar içərisində “Çillə qarpızı” xüsusi yer tutardı. Bu ənənə bəzi bölgələrimizdə bu gün də qorunur, yaşadılır və qeyd edilir.

*Bu qarpız, çilə qarpız,*
*Düşübdür dilə qarpız.*
*Yığılıb xonçalara*
*Gedir yargilə qarpız.*

Şərur rayonunun bəzi kəndlərindən toplanmış materiallara görə, nişanlı qızlara qarpız aparanda onun yanına bıçaq da qoyardılar. Qarpız aparılan bıçaqla kəsilir və sonra yenidən oğlan evinə qaytarılırdı.

Asəf Orucov onu da deyir ki, Ordubad bölgəsində həmin gün evdə un yeməkləri (xəşil, tərək, quymaq), hədik bişirilər, qovurğa qovurular, qovut çəkilərdi.

Etnoqrafik çöl materiallarına əsaslanaraq demək olar ki, çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasında olan inama görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz. Ordubad bölgəsinin bəzi kəndlərində mövcud olan adətə əsasən çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə, qatıq yeyərdilər. Həmin gecə süfrəyə “q” hərfi ilə başlanan nemətlər, məsələn, qarpız, qovun, qatıq, qovurğa, qaysava, qovurma, qovut və başqa nemətlər qoyma adəti də mövcuddur. Çillədə qarpızın kəsilməsi və yaxud qarpız olmasa, qatıq yeyilməsi adətini nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, bunların hər ikisi sərinləşdirici əlamətlərə malikdir. Bunların yeyilməsi qışın soyuğuna qarşı çıxmaq, ona hazır olmaq anlamına gəlir. Qarpızın içərisinin qırmızı rəngdə olması Günəşin rəmzi kimi sayıla bilər ki, bu da istiliyi çağırmaq anlamı ilə bağlıdır.

*Əsrlərdən bəri gələn hər bir bayram öz gəlişi ilə əlamətdardır. Xalq özünün ən ağır günlərində belə, bu el mərasimlərini qeyd etməyi yaddan çıxarmayıb. Arzumuz budur ki, el-obamızda həmişə əmin-amanlıq olsun. Həmişə olduğu kimi, yenə də ulularımızın illərdən bəri bizə ərmağan kimi saxladığı el adət-ənənələrimizi beləcə, deyə-gülə, xoşhallıqla qarşılayıb yola salaq.*

✍ Ramiyyə ƏKBƏROVA

## Futbol birinciliyinin qalibləri müəyyənləşib



Uzunoba Təlim-Məşq İdman Kompleksinin üstüörtülü minifutbol meydançasında muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları arasında keçirilən futbol üzrə birinciliyə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi birincilik 4 gün davam edib. Birinciliyin final görüşündə Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının komandası ilə Paralimpiya Federasiyasının komandası üz-üzə gəlib. Görüş basketbolçuların 8:3 hesablı qələbəsi ilə başa çatıb. Üçüncü yer uğrunda keçirilən oyunda isə Güləş və Atıcılıq federasiyalarının idmançıları qarşılaşıb. Əsas və əlavə vaxtı heç-heçə başa çatan (3:3) oyunda qalib penaltilərlə müəyyənləşib. Zərbələri daha dəqiq yerinə yetirən atıcılar görüşdən qalib ayrılıblar.

Sonda qalib komandanın idmançıları diplom, medal və kubokla mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı təqdim edib.

## İdmançımız ölkə çempionu olub



*Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının idmançıları boccia idman növü üzrə Azərbaycan çempionatı – “Zəfər turniri”ndə iştirak ediblər.*

Azərbaycan Milli Paralimpiya Komitəsi və Boccia İdman Federasiyasının təşkilatçılığı ilə keçirilən ölkə çempionatının final mərhələsi Bakı İdman Sarayında baş tutub. Final mərhələsinə qədər idmançılar yarışın seçmə mərhələsində iştirak ediblər. Müxtəlif regionlardan 50-dən çox müvafiq kateqoriyalı idmançının iştirak etdiyi yarışda Naxçıvan təmsilçiləri yüksək nəticələr əldə ediblər.

Paralimpiyaçılarımızdan Qafqaz Hüseynov BC3 kateqoriyası üzrə ölkə çempionu adına layiq görülüb. Fuad Qəribov isə BC1 növü üzrə gümüş medal qazanıb.

Sonda qaliblər təltif olunublar.

✍ Ceyhun MƏMMƏDOV

***İtmişdir***

Mahmudov Əmir İntiqam oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dəmirçi kəndində yaşamış Mehdiyev İsak Məmməd oğlunun adına olan JN-1274 seriya nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1062